# MÖVZU: 8.NEOGEY QURUSU, ÜMUMİ SƏCİYYƏSİ

Neotropika vilayəti Neogey qurusunun tərkibinə daxil olan yeganə vilayətdir. Bu vilayət bütün cənubi və Mərkəzi Amerikanı, həm də Vest- İnd adalarını əhatə edir. Mərkəzi Amerikada Neotropika faunasının bir sıra tipik nümayəndələri yoxdursa da və burada Şimali Amerikanın xarakter heyvanları görünürsə də, bunun nəticəsində Mərkəzi Amerika qismən keçid qurşağı təşkil edirsə də, hər halda Neotropika vilayətinin şimal sərhəddini olduqca dəqiq surətdə Meksika dağlarının cənub ətəklərindən keçirmək olar.

Neotropika faunası olduqca zəngin və xüsusiyyətlidir. Bu faunanin ən xarakter xüsusiyyətləri aşağıdakılardır: 1.Kəmdişlilər dəstəsi (zirehlilər, qarışqaüeüənlər və ərincəklər) bura üçün avtoxtondur və ancaq zirehlilərin bəziləri bu vılayət sərhəddindən bir az şimala tərəf çixirlar; 2. Burada kisəlilərin iki yarim dəstəsi- çoxkəsicidişlılər və senolestlər vardir; bu yarim dəstələrdən birincisinə Amerikaya məxsus olan opossumlar fəsiləsi (30 növə qədər), ikinci yarımdəstəyə icə ancaq 4 növ aiddir və bu yarımdəstə endemikdir. 3.Növlərlə zəngin olan enliburun meymunlar dəstəsi avtoxton və endemikdir. 4. burada demək olar ki, həşəratyeyənlər dəstəsi heç yoxdur. 5.çox növü olan vampirlər fəsiləsi endemikdir. 6.dolubuynuzlu cütdırnaqlılardan burada ancaq bir neçə maral növü yaşayır. 8.Quşlar olduqca müxtəlif olub Amerika dəvəquşuları, tinamular, hosinlər dəstələri, palamideylər, krakslar, mukanlar və Amerika kərkəsləri yarımdəstələri kimi çoxlu miqdarda endemik ali təsnifat qrupları vardır.

Neotropika faunasının zənğinliyi və müxtəlifliyi əcac etibarı ilə tropik qurşaqda yerləşən Neotropika vilayəti landşaftlarının müxtəlifliyi ilə əlaqədardır. Bu vilayət iki hissəyə-cənub-qərbi və şimal-şərqi hissələrə bölünür. Cənub-Qərb hissəsindəaçıq landşaftlar-düzənlik və ya dağlıq landşaftları, şimal-şərq hissəsində isə əsasən tropik meşələr üstün yer tutur. Tamamilə təbiidir ki, landşaftların bu cür kəskin surətdə dəyişməsi bu yerlərinfauna və florasına da təsir edir. Ancaq Mərkəzi və Cənubi Amerikanın heyvanlar aləmini daha diqqətlə öyrəndikdə bunların ümumi inkişaf tarixi ilə əlaqədar olan yeganə bir kompleksdən ibarət olmasını müəyyən etmək olar. Məs.oppossumlar bütün Cənubi və Mərkəzi Amerikada yayılmışlar, zirehlilər, dəniz donuzcuqları, gəmiricilərdən səkkizdişlilər fəsiləsi və bir sıra başqa məməlilərin yayılması da oppossumların yayılmasına uyğundur.Tinamular, palamadeylər, Amerika kərkəskəzləri, kolibrlər bütün Cənubi Amerikada yayılmışlar.Realların bir növü Pataqoniyada, başqa bir növü isə And dağlarında, üçüncü bir növü Braziliyanın şimal- şərq steplərində yaşayır və s.

***Neotropika faunasının tarixi***. Heç olmasa üçlük dövrünün əvvəllərindən və bu dövrün sonuna qədər Cənubi Amerika dıgər quru hiccələrindən, xüsusilə Şimali Amerikadan ayrılmışdır. Bu uzun müddət ərzində Cənubi Amerikada kəmdişlilərdən, enliburun meymunlardan, səkkizdişli ğəmırıcılərdən, Cənubi Amerika təkbarmaqlılarından və s. ibarət olan olduqca xüsusiyyətli vəzənğin fauna əmələ gəlmişdir Üçlük dövrünün sonunda Cənubi Amerika yenidən Şimali Amerikaya bərzəx vasitəsilə birləşmiş və bunların arasında qismən fauna və flora mübadiləsi getmişdir. Ancaq bu mübadilə əhəmiyyətli dərəcədə bir tərəfli idi: Şimali Amerikaya ancaq bəzi qruplar,xüsusən kəmdişlilər keçmişdir. Halbuki

yırtıcılar, tapirlər, lamalar, atlar, antiloplar, mastodontlar cənuba doğru çox böyük sürülərlə keçmişlər. Cənubi Amerikaya köçmüş bu heyvanlar əsas yerli faunanı əhəmiyyətli dərəcədə, bəzən isə tamamilə sıxışdırmışlar. Ancaq köçüb gəlmiş bu heyvanların da bir çoxunun (antiloplar, mastodontlar, atlar) tezliklə nəsli kəsilmişdir. Bu hadisənin, xüsusən atların nəslinin kəsilməsinin səbəbi indiyəqədər məlum deyildir. Çünki, atların yaşaması üçün lazım olan bütün şərait o zaman pampaslarda ehtimal ki, var idi. İspaniyalılar tərəfindən buraya çoxlu miqdarda gətirilmiş və vəhşiləşmiş atların sürətlə çoxalmaları bunu isbat edir.

**Yarımvilayətlər.** Neotropika vilayəti aşağıdakı dörd yarımvilayətə bölünür: 1.**Pataqoniya-Çiliyarımvilayəti:** mötədil qurşaqda yerləşən cənub hissələrini, yəni stepləri( pampasları) əhatə edir ki, bu steplər ayrı-ayrı yerlərdə səhralara keçir, ancaq And dağlarında isə bu yarımvilayət ensiz və uzun bir zolaq şəklində, demək olar ki, ekvatora qədər çatır. Arkentina pampaslarının ən xarakter heyvanları aşağıdakılardır: nandu, müxtəlif gəmiricilər, xüsusən baybakları, Şimali Amerika çəmən itlərini əvəz edən və Buenos-Ayresdən başlayaraq Pataqoniyaya qədər bütün sahədə kaloniyalar ilə yaşayan viskaşa. Daha sonra bataqlıqların, çayların və göllərin sahillərində yaşayan bataqlıq qunduzunu; xarici görünüşcə dovşanlara oxşayan iri gəmirici marunu; qazıcı gəmiricilər olan və Pataqoniyanın ayrı ayrı yerlərini öz dəlikləri ilə başdan-başa örtən muko-mukonu qeyd etmək lazımdır. Başqa məməlilərdən bu yarımvilayətlər üçün pampaş pişiyi, kiçik pampas maralı, zirehlilər, puma daha xarakterdir. Meymunlar, tapirlər, ərincəklər, qarışqayeyənlər, pekarlar, mukanlar və bir sıra meşəməməliləri və quşları burada yoxdur. Bir sıra növlər Amerikanın ən cənubunda yerləşən aranlıq yerlərindən başlayaraq ekvator hissəsində yerləşən hündür dağlara qədər yayılmışdır. Məsələn. ekvatorial Amerikanın yüksək dağlıq zonası üçün ən xarakter olan kondor bu qitənin cənub qurtaracağında dəniz sahilində yaşayır və qayalar arasında yuvalayır. Eyni nandu növü həm Boliviya yastı dağlarında, həm də Cənubi Pataqoniyada yaşayır quanako isə Ekvator və Peru yüksək dağ silsilələrindən başlayaraq Pataqoniya və Odlu torpaq düzənliklərinə qədər yayılmışdır.And dağlarının hazırkı yüksəkliyə qədər qalxması yaxın geoloji dövrdə, daha doğrusu, üçlük(pliosen) dövrünün sonunda baş vermişdir.Yüksək And dağlarında yaşayan ən xarakter gəmiricilərə olduqca qiymətli xəz heyvanı olan şinşilla aiddir ki, bu heyvan demək olar ki, indi tamamilə tələf edilmişdir.

***2.Braziliya yarımvilayəti*.** Cənubi Amerikanın böyük hissəsini, daha doğrusu buranın bütün şimalını və şimal-şərq hissəsini əhatə edir. Bu yarımvilayətin əsas landşaftı rütubətsevən tropik meşələrdir ki, belə meşələr Amazonka və Paraqvay hövzələrində daha sıx yayılmışdır.. 1000 m artıq yüksəkliklərdə bu meşələr tropik dağ meşəsinə keçir və belə meşələrdə palmalar olmur. Yer kürəsinin heç bir yerində rütubətsevən tpopik meşə Cənubi Amerikada olduğu kimi böyük inkişafa çatmır və burada olan fauna kimi ağac yaşayışına uyğunlaşmış fauna heç bir yerdə yoxdur.Çox maraqlıdır ki, Amerika meşə məməliləri içərisində növlərin çox böyük faizi ilişənquyruqlu heyvanlardır Enliburun meymunların əksəriyyəti, opossumlar, ağac qarışqayeyənləri və oxlu kirpilər, ilişənquyruqlu yenotlar bu cür heyvanlardır.Braziliya yarımvilayətinin faunası olduqca zəngindir, bu faunada Neotropika vilayətinin xarakterik

əlamətləri çox aydın gözə çarpır, bəzi endemik qrupların hamısı burada yaşayır.. Ümumiyyətlə demək olar ki, Braziliya yarımvilayəti meymunlar, ərincəklər, myxtəlif yarasalar, mukanlar, nəhəng ilanlar, ağac qurbağaları ölkəsidir. Hoasin, nina, ikicürtənəffüslü balıqlardan olan lepidosiren, elektrik naxası ancaq burada yaşayır.

**3.Mərkəzi Amerika** yarımvilayəti öz landşaftlarına görə olduqca myxtəlifdır. Ancaq bu yarımvilayət əsas etibarı ilə rütubətsevən tropik meşələrlə örtülü dağlardan ibarətdir. Bu yarımvilayətin fauna və florası ümumiyyətlə Braziliya yarımvilayəti təbiətinə yaxındırsa da, ancaq müəyyən dərəcədə Şimali Amerika faunasına keçid xarakteri daşıyır. Bununla yanaşı olaraq, bu fauna onurğalıların bütün siniflərinə aid olan bir çox endemik cinslərə də malikdir.

4. **Antil yarımvilayəti**. Böyük Antil (Kuba, Yamayka, haiti və Kosta- Rika adalarını), Beqam və Kiçik Antil adalarını əhatə edir. Belə gözləmək olardı ki, Cənubi və Şimali Amerikanı bir-biri ilə birləşdirən və qismən su altında qalmış dağ silsiləsindən ibarət olan Antil adalarının faunası və florası Florida və Venesuela faunaları arasında keçıd xarakteri daşıyır. Çoxlu növləri olan yarasaları çıxmaq şərtilə, məməlilər burada çox az növə malikdirlər - bunlardan ancaq gəmırıcıləri və həşaratyeyənlər vardır.Gəmiricilərin əksəriyyəti endemik cinslərə, həşaratyeyənlər isə endemik yarıqdişlilər fəsiləsinə aiddir. Çox xüsusiyyətli və olduqca primitiv olan bu fəsilənin ancaq 2 növü vardır ki, qohumluq etibarilə bunlara ən yaxın olan heyvanlar Madaqaskar ternekləridir. Quş faunası çoxlu miqdarda endemik növlərdən ibarətdir ki, bu növlərə neotrpik formalar da qarışmışdır. Az növlü Modılər fəsiləsi tamamilə endemik fəsilədir.

Best-İnd adaları faunası tarıxı çox mürəkkəbdir, çünki bu adalar ehtimal ki, daha ilk dövrlərdə Şimali Amerika ilə, daha son dövrlərdə isə Mərkəzi və Cənubi Amerika ilə bir neçə dəfə birləşib ayrılmışlar və həmçinin dəfələrlə, qismən də olsa su altında qalmışlar